


# Avropa İnsan Hüquqlarını Müdafiə Mərkəzinin (EHRAC)

# SORAQ KİTABÇASI

## Tez-tez verilən suallar

İnsan Hüquqları üzrə Avropa Məhkəməsində işlərin aparılması

EHRAC

Middlesex University London

# Mündəricat


## I. Sübutlar 3

Şikayətimi təqdim etmək üçün hansı sübutları toplamalıyam? 3

## II. İlkin təminat tədbirləri 4

İlkin təminat tədbirləri üçün nə vaxt müraciət etməliyəm? 4

İlkin təminat tədbirləri üçün necə müraciət etməliyəm? 4

## III. Ərizənin hazırlanması 5

Ərizə formasına nələr daxil edilməlidir? 5

"Faktlar" bölməsini (Ərizənin "E" bölməsi) necə hazırlamalıyam? 6

"İddia olunan pozuntular" ("F" Bölməsi) bölməsini necə hazırlamalıyam? 7

"Qəbuledilənlik" bölməsində ("G" bölməsi) nələr daxil edilməlidir? 7

Daxili hüquqi müdafiə vasitələrinin səmərəsiz və ya əlçatmaz necə əsaslandıra bilərəm? 8

Qoşmalar və əlavə səhifələr arasında fərq nədir? 9

## IV. İcraatın ilkin mərhələsi haqqında digər praktiki məlumatlar 9

İşdə birdən artıq sayda ərizəçi olduqda nə etməliyəm? 9

Nümayəndələr üçün hansı qaydalar mövcuddur? 9

Ərizəyə daxil edilmiş imzalara (formanın 13-cü səhifəsi) hansı qaydalar tətbiq edilir? 10

Məhkəmə Reqlamentinin 40-cı maddəsinə əsasən təcili baxış və ya Məhkəmə Reqlamentinin 41-ci maddəsinə əsasən prioritetlik əldə etmək üçün məhkəməyə necə müraciət etməliyəm? 10

Məxfiliyi necə tələb edə bilərəm? 10

Ərizəni necə göndərməliyəm? 11

Ərizə məhkəməyə təqdim edildikdən sonra nə baş verir? 11

İşlərimdən hər hansı biri ilə bağlı sualım olduğu halda, Məhkəmə ilə necə əlaqə saxlaya bilərəm? 11

Məhkəmə tərəfindən təyin olunan son müddətin uzadılmasını xahiş edə bilərəm? 11

Razılığa gələn tərəfin fərdi şikayət hüququna mane olmamaq öhdəliyinin tətbiq dairəsi nədir? 12

Məhkəməni nə zaman və nə haqqında məlumatlandırmalıyam? 12

Ədalətli kompensasiya tələbini məhkəmə qarşısında necə qaldıra bilərəm? 12

## V. Ərizə necə işlənilir? 13

Məhkəmənin müxtəlif bölmələri arasında işlər necə bölünür? 14

İş barədə cavabdeh hökumətlə kommunikasiya başlayandan sonra nə baş verir? 15

Barışıq sazişindən imtina və ya onu qəbul etmək (yaxud təklif etmək) barədə qərarı necə verməliyəm? 15

Məhkəmədən müəyyən qərardakı səhvləri düzəltməsini xahiş etmək mümkündürmü? 16

Şikayətin Böyük Palataya ötürülməsi üçün nə vaxt müraciət edə bilərəm? 16

Şifahi çıxışları necə hazırlamalı və təqdim etməliyəm? 16

İnsan Hüquqları üzrə Avropa Məhkəməsi ("İAHM" və ya "Məhkəmə") şikayət ərizəsinin göndərilməsinin müxtəlif tərəflərinə dair bir sıra faydalı resurslar təqdim etmişdir. Lakin Məhkəməyə ilk dəfə şikayət verərkən və ya yeni bir məsələ ilə üzləşərkən, konkret bir suala cavab tapmaq heç də həmişə asan olmur.

EHRAC-ın "Tez-tez verilən suallar" adlı məlumat kitabçası sıxlıqla verilən sualların bəzilərinə cavablar təmin etməklə, bu cür şikayətlər verən hüquqşünaslara kömək etmək məqsədi daşıyır. Bu vəsait Məhkəmə qarşısında icraatın bütün aspektlərini əhatə etmək üçün nəzərdə tutulmayıb. Məhkəmənin yurisdiksiyası ilə bağlı spesifik məlumatlar üçün Məhkəmənin şikayətin qəbuledilənliyi ilə bağlı təlimatı və tematik məlumat bülletenlərinə nəzər sala bilərsiniz.

Bu vəsait EHRAC-ın əməkdaşları Cessika Qavron, Konstantin Kojokariu və Filip Liç tərəfindən hazırlanıb.

# I. Sübutlar

## Şikayətimi təqdim etmək üçün hansı sübutları toplamalıyam?

Beynəlxalq məhkəmələr qarşısında iddia qaldırarkən, iddianızı əsaslandırmaq üçün müvafiq sübutlar toplamağınız və dövlət orqanları tərəfindən təqdim edilmiş sübutlara güvənməməyiniz vacibdir. Buraya hökmən ərizəçi tərəfindən verilən şahid ifadəsi daxil edilməli və burada hadisələrin necə baş verdiyi ilə bağlı onun öz versiyası öz əksini tapmalıdır. Hətta ərizəçi dövlət orqanları tərəfindən dindirilmiş olsa belə, yaxud daxili məhkəmələrin qərarlarında onların ifadələrinin xülasəsi təmin edilsə belə, ərizəçinin şahid ifadəsinin təqdim olunması tövsiyə edilir. Çünki qeyd olunan digər formalarda əldə olunan ifadələr ərizəçinin qaldırdığı bütün məsələləri əhatə etməyə, yaxud ərizəçinin İAHM qarşısındakı iddiası üçün uyğun olan bütün amilləri (məsələn, ayrı-seçkiliklə bağlı sübutlar) ehtiva etməyə bilər. Həmçinin, böyük ehtimalla, qohumlar, dostlar, qonşular və ya hadisələrə və onların təsirinə şahid olmuş digər şəxslərdən ifadələr almalı olacaqsınız.

Şahid ifadəsi götürərkən, şahidin hadisələri xronoloji ardıcıllıqla nəql etməsi, bütün uyğun təfərrüatları, o cümlədən vaxtları, tarixləri və hadisə yerni öz sözləri ilə bildirməsi vacibdir. Şahidlərə *"sonra nə baş verdi..onun ardınca nə oldu...bu necə baş verdi...harada...kim var idi...nə qədər davam etdi*" kimi açıq suallar verərək danışmağa sövq etmək çox faydalıdır. Eyni faktlar barədə bir neçə şahiddən ifadələr alırsınızsa, bu ifadələrin ayrı-ayrılıqda, hər bir şahidin öz sözləri ilə tərtib olunmasına diqqət edin. Beləliklə siz onların bir-birinə çox oxşar olmasının və nəticədə onların etibarlılığının azalmasının qarşısını alacaqsınız. Şahid ifadələri şahidlərin özlərinin başa düşdüyü formada faktları əks etdirməli və hüquqi arqumentləri ehtiva etməməlidir. İAHM ifadələrinin formasına dair konkret qaydalar irəli sürmür. Daha konkret təlimatlar üçün EHRAC-ın "Şahid ifadələrinin hazırlanmasına dair Təlimat"ına nəzər sala bilərsiniz.

Digər müvafiq sübutlara tibbi sübutlar (həkim arayışları və ya xəstəxana sənədləri), xəsarətin və ya əmlaka dəyən ziyanın fotoları, videolar, polis protokolları, daxili məhkəmə və inzibati orqanların qərarları, mətbuatda dərc olunan xəbərlər, beynəlxalq hesabatlar və ya işin hansısa aspekti üzrə cəlb olunmuş adekvat ekspert-şahidin rəyləri daxil ola bilər. Foto və ya video sübutlar təqdim edərkən mümkün hallarda onların müəllifindən adi eyniləşdirmə məlumatları ilə (ad, ünvan, peşə) yanaşı, onların çəkildiyi tarix, vaxtı və nə məqsədlə çəkildiyini bəyan edən şahid

ifadəsini də daxil etməlisiniz. Bu mümkün olmadıqda və sübutlar internetdən əldə olunduqda, işi aparan hüquqşünas foto və ya videonun mənşəyini və uyğunluğunu izah edən oxşar ifadə təmin etməlidir.

# II. İlkin təminat tədbirləri

## İlkin təminat tədbirləri üçün nə zaman müraciət etməliyəm?

Məhkəmə Reqlamentinin 39-cu Qaydasına əsasən, ərizəçilər və onların qanuni təmsilçiləri ilkin təminat tədbirlər üçün müraciət edə bilər. Bu tədbirlər müstəsna geridönməz zərər hallarında təmin olunur. Geridönməz zərər Məhkəmə tərəfindən əsasən deportasiya və ya ekstradisiya təhdidindən qaynaqlanan, lakin eyni zamanda yaxınlaşan məcburi çıxarılma və ya məhbusların təxirəsalınmaz tibbi müalicə ilə təmin olunmaması kimi məsələlərlə əlaqədar ərizəçiyə vurula biləcək fiziki zərər kimi şərh olunur. Buna görə də, yadda saxlanılmalıdır ki, ilkin təminat tədbirlərinin təmin olunması üçün sübut həddi yüksəkdir və müraciətlərin bir çoxu qəbul edilmir. Ərizəçilər Məhkəməyə müraciət etməzdən əvvəl, dayandırıcı və ya təxirəsalıcı qüvvəyə malik olan daxili hüquqi müdafiə vasitələrindən istifadəyə səy göstərməlidir. Lakin yekun daxili qərar qəbul edildikdən sonra, ilkin təminat tədbirləri üçün müraciətlər mümkün qədər tez göndərilməlidir. Çünki bu, müraciət qəbul edildiyi təqdirdə Məhkəmənin təcili tədbirlər nəzərdə tutmasına imkan verəcək. İlkin təminat tədbirləri barədə qərar adətən Məhkəmə qarşısında olan işlə əlaqədar verilir, lakin hələ ərizə verməmişdən qabaq da müvəqqəti tədbirlər üçün müraciət göndərmək mümkündür. Bu halda, Məhkəmə müraciəti qəbul etməyi nəzərdən tutarsa, sizdən adətən qısa müddət ərzində ərizə (şikayət) göndərmək tələb olunacaq. Bəzi hallarda Məhkəmə ilkin təminat tədbirləri ilə bağlı müraciəti təmin etməsə belə, cavabdeh dövlətə suallar göndərə və hansısa şikayət ərizəsini, məsələn, zərər çəkmiş şəxsin təcili təhlükə altında olduğu (cinayətkarın həbsdən azad edilməsindən qaynaqlanan) məişət zorakılığı ilə bağlı işi prioritetləşdirə bilər.

## İlkin təminat tədbirləri üçün necə müraciət etməliyəm?

İlkin təminat tədbirləri üçün müraciət mövcud riskin xarakteri və pozulduğu iddia edilən Konvensiya müddəaları daxil edilməklə, hərtərəfli, lakin konkret şəkildə əsaslandırılmalıdır. O, adətən ərizəçinin şahid ifadəsi ilə müşayiət olunmalı və bütün adekvat sübutedici sənədləri, o cümlədən daxili məhkəmə, tribunal və ya digər orqanların qərarlarını, eyni zamanda sözügedən iddiaları əsaslandırmaq üçün zəruri olan digər materialları ehtiva etməlidir. Ərizə tələb olunan tədbirləri aydın şəkildə əks etdirməlidir. Əlaqə məlumatlarını və ya vəkalətnaməni əlavə etməyi unutmayın. Məhkəmənin qərar qəbul etməsinə imkan verən bütün zəruri sənədlərin daxil edilmədiyi müraciətlər adətən qərar üçün təqdim edilmir. 39-cu Qayda çərçivəsində ilkin təminat tədbirləri üçün müraciətlər Məhkəmənin təmin etdiyi məlumatlardan istifadə edərək faksimil və ya poçt vasitəsilə edilməlidir. İlkin təminat tədbirləri məhkəmə tərəfindən 24-48 saat ərzində qərar qəbul edilir. İlkin təminat tədbirləri üçün müraciət edən ərizəçilər Məhkəmə tərəfindən təqdim olunan hər hansı yazışmaları dərhal cavablandırmalı, habelə Məhkəməni fakt və ya şəraitin dəyişməsi barədə məlumatlandırmalıdır.

Ərizəçilər daha ətraflı məlumat üçün Məhkəmənin Praktiki Təlimatına və Məlumat bülletenine, eləcə də EHRAC-ın ilkin təminat tədbirləri ilə bağlı təlim materialına nəzər sala bilər.

# III. Ərizənin hazırlanması

## Ərizə formasına nələr daxil edilməlidir?

Ərizə formasını Məhkəmənin veb-saytından əldə etmək mümkündür. Siz bu formadan istifadə etməli və formanı Şikayətin verilməsi haqqında praktiki təlimatda Məhkəmənin təqdim etdiyi göstərişləri nəzərə alaraq, Məhkəmə Reqlamentinin 47-ci Qaydasına uyğun olaraq doldurmalısınız. Yazılı müraciətlər haqqında praktiki təlimat bütün müraciətlərə şamil edilir. Məhkəmə ərizələrin təqdim olunmasının spesifik xüsusiyyətlərinə dair faydalı məsləhətlər təmin edir[1]. Siz bütün müvafiq xanaları doldurmalı, bu zaman 47-ci Qaydada və Məhkəmənin dərc etdiyi digər təlimatlarda irəli sürülən göstərişlərə dəqiq əməl etməlisiniz. Ərizənin kompüterdə yığılmasına üstünlük verilir, lakin əllə də yazılması mümkündür. Siz razılığa gələn dövlətlərin hər hansı birinin dilindən istifadə edə bilərsiniz - ən azından icraatın ilkin mərhələsində. 47-ci Qaydada irəli sürülən tələblərə əməl edilməməsi ərizənin qeydiyyata alınmaması və ya imtina edilməsi ilə nəticələnə bilər.

Ərizə formasına daxil edilmiş informasiyanın məqsədi faktların və iddia olunan pozuntuların təsvirini və ərizənin qəbuledilənlik meyarlarına uyğunluğunu hərtərəfli, lakin konkret və yığcam şəkildə təqdim etməkdir. Formada Məhkəmənin digər materiallara üz tutmadan müraciətin xarakterini və əhatə dairəsini müəyyən etməsinə imkan verəcək dərəcədə yetərli informasiya olmalıdır. Simvolların və ixtisarların istifadəsindən çəkinmək lazımdır.

Hüquqi arqumentləri icraatın sonrakı mərhələlərinə saxlamaq (məsələn, hökumətin qeydlərinə cavab olaraq) əvəzinə, ilkin mərhələdə mümkün qədər güclü ərizə təqdim etməyiniz tövsiyə edilir. Siz ən güclü iddialarınıza köklənməlisiniz və Məhkəmənin diqqətini yayındıra biləcək daha zəif və ya ikinci dərəcəli məqamları kənarlaşdırmağı qərara ala bilərsiniz. Siz əsas diqqəti Konvensiyada nəzərdə tutulan bir və ya bir neçə hüququn pozulduğunu əsaslandıran *'prima facie'* iş hazırlamağa yönəltməlisiniz. Ölkə xanasını nişanlamaq da daxil olmaqla, ərizə formasında bütün tələbləri yerinə yetirdiyinizdən əmin olun. Yadda saxlayın ki, Məhkəmə xeyli sayda işi aşkar surətdə əsassız və ya natamam olması səbəbilə icraatın lap erkən mərhələsində rədd edir.

## “Faktlar" bölməsini (Ərizənin "E" bölməsi) necə hazırlamalıyam?

Siz əsas faktları xronoloji şəkildə təqdim etməli, zərurətə uyğun olaraq tarixləri, vaxtları və yerləri təmin etməlisiniz. Pozuntu iddiasını əsaslandıran bütün faktlarla bağlı təfərrüatları daxil etdiyinizdən əmin olmalısınız. "Faktların bəyan edilməsi" bölməsində əsası olmayan iddialar irəli sürə bilməzsiniz: təsvir etdiyiniz hər bir fakt iş materiallarında sübutla (şahid ifadəsi, hadisə ilə bağlı milli və ya beynəlxalq hesabat, tibbi sənəd və s.-də olan) dəstəklənməlidir. Hansısa hadisə və ya insidenti təsvir edərkən, onu əsaslandıran sübuta qısa şəkildə istinad etməlisiniz (məsələn, Əlavə X - H.P.-nin şahid ifadəsi, və ya Əlavə X - "Human Rights Watch" təşkilatının hesabatı, səh.10).

"Faktların bəyan edilməsi" bölməsi obyektiv, neytral qaydada yazılmalı və hər hansı şərh və ya

[1] https://www.echr.coe.int/Documents/Application_Notes_ENG.pdf
https://www.echr.coe.int/Documents/Applicant_common_mistakes_ENG.pdf
https://www.echr.coe.int/Pages/home.aspx?p=court/questionsanswers&c=

hüquqi dəlil ehtiva etməməlidir. Bununla belə, müvafiq olduqda, burada hadisənin ərizəçiyə təsiri barədə qısa məlumat (ərizəçinin fiziki və əqli sağlamlığı, yaşayış vəziyyəti, gəlir imkanları, perspektivləri və ya digər amillər baxımından) daxil edilməli və müvafiq sübutlarla əsaslandırılmalıdır (ərizəçinin şahid ifadəsi, tibbi sənəd, mülkiyyətə zərər və s.).

İş fərqli icraatlardan və ya fərqli fakt xarakterli hadisələrdən ibarətdirsə, onların hər birini ayrı-ayrılıqda əhatə etmək faydalıdır. Məişət zorakılığı kimi çoxsaylı zorakılıq və ya ayrı-seçkilik hallarını ehtiva edən bir ssenaridə onlar tarixi, yeri və hər hadisənin qısa təsvirini göstərməklə bəndlər şəklində təqdim edilə bilər.

Siz uzun sitatlardan, iddialarınızla birbaşa əlaqəli olmayan faktlardan və arxa plan təsvirlərindən çəkinməlisiniz. Son dərəcə vacib olmayan detallar üçün qoşmalara istinad etmək, yaxud bu cür məlumatları əlavə səhifələrdə təqdim etmək mümkündür. Siz daxili məhkəmələrin qərarlarının əsaslandırmasını və ərizəçilərin daxili məhkəmələrə təqdim etdikləri müraciətlərin icmalını daxil etməlisiniz. Bu, qəbuledilənlik meyarlarına uyğunluğu göstərmək və ya iddia olunan pozuntuları sübut etmək üçün uyğun ola bilər.

## "İddia olunan pozuntular" ("F" Bölməsi) bölməsini necə hazırlamalıyam?

“Faktlar” bölməsində olduğu kimi, burada da aydın, sadə dildə yazmaq lazımdır. Hər bir pozuntu ilə əlaqədar, sual altında olan məsələni müəyyən etməli, hüquqi əsas və ya prinsipi müəyyən etməli, prinsipi sizin məsələnizin faktlarına tətbiq etməli və nəticəyə gəlməlisiniz. Sizə aşağıdakılar tövsiyə edilir:

- Arqumentlərinizi mümkün qədər güclü təqdim edin - lakin sübutlarla dəstəklənə biləcək həddədək;
- emosional üslubdan və həddən artıq ümumiləşdirici bəyanatlardan çəkinin;
- iddialarınızın dəqiqliyini hökmən yoxlayınş. Əks halda, təqdim etdiyiniz dəlilə inamın azalması riski yarana bilər;
- potensial hüquqi əngəlləri və ya zəif cəhətləri müəyyən etməyə çalışın və onların öhdəsindən gəlmək üçün dəlillər təmin edin;
- faydalı olmayan halları ayırd edin - bu zaman işinizdəki hər hansı zəif cəhətləri həddən artıq vurğulamayın;
- Məhkəmədən öz hüquqi praktikasını inkişaf etdirməyi və ya genişləndirməsini xahiş edirsinizsə, bunun üçün yol göstərməyə çalışın - məsələn, bənzər işlərlə analogiyadan istifadə edin.

Hər bir şikayət əlaqəli Konvensiya maddəsini qeyd etməli və onun necə pozulduğunu izah etməlidir. Bu zaman müvafiq faktlara, daxili qanunvericiliyə və/yaxud Məhkəmənin presedent hüququna istinad etməlidir. Siz Konvensiyada nəzərdə tutulan bir və ya bir neçə hüquqla bağlı mücərrəd pozuntular iddia etməkdən çəkinməlisiniz. Məhkəmə sözügedən maddə ilə uyğunluğu qiymətləndirmək üçün testdən istifadə edirsə, testin bütün elementlərini hökmən təqdim edin. Məsələn, Konvensiyanın 8-ci maddəsinin pozuntusunu iddia edərkən, hansı tədbirin ərizəçinin ailə və ya şəxsi həyatına müdaxilə təşkil etdiyini və bunun hansı səbəbdən Konvensiyanı pozduğunu müddəada əksini tapan bir və ya bir neçə əsasa (qanunda nəzərdə tutulmama/ legitim məqsədin olmaması/qeyri-mütənasiblik) söykənərək əsaslandırmalısınız. Bu, ərizədə yığcam formada edilməlidir və siz dəlillərinizi əlavə səhifələrdə ətraflı izah edə bilərsiniz.

Söykəndiyiniz Məhkəmə qərarlarına istinad etmək (işinizlə əlaqəsi olan dəqiq bəndi göstərərək və onun əlaqəliliyini izah edərək) faydalıdır.

## "Qəbuledilənlik" bölməsində ("G" bölməsi) nələr daxil edilməlidir?

Bu bölmədə siz hər bir iddia ilə bağlı, müvafiq daxili hüquqi müdafiə vasitələrindən (yəni, əlçatan, səmərəli və yetərli olan - aşağıya nəzər salın) tükəndirdiyinizi və öz ərizənizi altı aylıq vaxt məhdudiyyəti çərçivəsində göndərdiyinizi ayrı-ayrılıqda nümayiş etdirməli, daxili səviyyədə qəbul edilmiş qərarları tək-tək sadalamalısınız. Siz Məhkəmə qarşısında qaldırdığınız bütün iddiaları milli sistemdə tükəndirdiyinizi göstərən sənədləri, o cümlədən milli məhkəmələrin qərarlarını, vəsatətləri və ya məhkəmə iclaslarının yazılı protokollarını təqdim etməlisiniz. Daxili hüquqi müdafiə vasitələrindən istifadə prosesində dərc olunmuş yekun qərarın (qərarların) tarixləri aydın şəkildə göstərilməli və müvafiq təsdiqedici sənədlər təmin edilməlidir.

Məhkəmə istifadə edilmiş hər bir hüquqi müdafiə vasitəsinin qısa təsvirini, o cümlədən məhkəmənin adını, qərarın tarixini və xarakterini təqdim etməyi tələb edir. Məsələn, irqi motivli pis rəftarla bağlı şikayət aşağıdakı xüsusiyyətlərə malik ola bilər:

- Pis rəftarla bağlı 3-cü maddə üzrə şikayət: İttihamın irəli sürülməməsi ilə bağlı prokurorluğun 05.11.2018-ci il tarixli qərarı; qərara qarşı verilmiş, rayon məhkəməsi tərəfindən 03.03.2019-cu il tarixində rədd edilmiş şikayət ərizəsi (Sənəd № 22/2019).
- Ayrı-seçkiliklə bağlı 14-cü maddə üzrə şikayət: Rayon məhkəməsi iddianı 5.03.2019-cu il tarixində təmin etməyib (Sənəd № 555/2019); Dairə məhkəməsi apelyasiya şikayətini 10.09.2019-cu il tarixində rədd edib; Apellyasiya Məhkəməsi 10.02.2020-ci ildə hüquqi məsələlərlə bağlı apelyasiya şikayətini rədd edib.

Əgər çatımlı olan, lakin tükəndirilməmiş hüquqi müdafiə vasitəsi qalıbsa, ondan istifadə edilməməsinin səbəblərini göstərməlisiniz. Məsələn, iddia edə bilərsiniz ki, hədsiz dərəcədə yubanmalar, dövlət orqanlarının zərər çəkmiş şəxsləri işə cəlb etməməsi və ya digər aşkar çatışmazlıqlar səbəbindən son dərəcədə səmərəsiz olan daxili istintaq bitənədək gözləməyiniz tələb olunmurdu. Müvafiq olaraq, bu bölmədə daxili dövlət orqanlarına araşdırma tələb edən hadisələr barədə adekvat məlumat daxil olduğunu göstərən sübutları və onların hərəkətsizliyini sübut edən digər dəlilləri daxil etməlisiniz.

## Daxili hüquqi müdafiə vasitələrinin səmərəsiz və ya əlçatmaz olduğunu necə əsaslandıra bilərəm?

Yuxarıda göstərildiyi kimi, ərizəçilər öz ərizələrində bütün daxili hüquqi müdafiə vasitələrini tükətdiklərini nümayiş etdirməlidirlər. Bundan sonra, bütün daxili hüquqi müdafiə vasitələrinin tükənmədiyini əsaslandırmaq yükü Hökumətin üzərinə düşür. Bunun üçün Hökumət istifadə edilməli olan daxili hüquqi müdafiə vasitəsini müəyyən etməli, o cümlədən onun həm nəzəri, həm də praktiki baxımdan səmərəliliyini əks etdirən sübutları əlavə etməlidir. Bundan sonra isə həmin hüquqi müdafiə vasitəsinin istifadə edildiyini, yaxud əksinə onun adekvat və ya effektiv olmadığını, yaxud onu bu hüquqi müdafiə vasitəsindən istifadə etməkdən azad edən xüsusi səbəblərin olduğunu sübut etmək vəzifəsi ərizəçinin üzərinə düşür. Ərizəçilərdən bir qayda olaraq əlçatan, effektiv və yetərli olan bütün hüquqi müdafiə vasitələrindən istifadə etmək tələb olunur. Bu, adətən müvafiq faktların təqdim edilməsi, daxili qanunvericiliyə istinad, yaxud müəyyən hüquqi müdafiə vasitəsinin hansısa səbəbdən səmərəsiz olduğunu sübut edən praktik

nümunələrin təmin edilməsi yolu ilə edilir. Daxili araşdırmanın səmərəsiz aparıldığı iddiası olduğu hallarda, ərizəçilər bunu hansı əsasla iddia etdiklərini izah etməlidir (müddətin uzunluğu, tədbirlərin görülməməsi və s.). Sadəcə hüquq müdafiə vasitəsinin səmərəsizliyinə dair şübhələrin olması ərizəçini hüquqi müdafiə vasitəsindən istifadə etməkdən azad etmir. Bunun əksi isə ondan ibarətdir ki, ərizəçinin istifadə etməyə çalışdığı hüquqi müdafiə vasitəsi Məhkəmə tərəfindən qeyri-adekvat hesab edildikdə 6 aylıq vaxt məhdudiyyətinə əməl etməmə səbəbilə işdən imtina edilməsi riski yaranır.

Hüquqi müdafiə vasitəsi o zaman əlçatan hesab edilir ki, ərizəçi dövlət orqanı və ya məmurundan asılı olmadan, birbaşa şəkildə prosesə başlaya bilir. Hüquqi müdafiə vasitəsinin praktiki əlçatanlığına təsir edə biləcək digər hallara hüquqi yardımın olmaması, yaxud sözügedən şəxsə müvafiq hüquqi müdafiə vasitəsindən müstəqil şəkildə yararlanmasına imkan verən adekvat məlumatların təmin olunmaması daxildir. Hüquqi müdafiə vasitəsi o zaman səmərəli və yetərli hesab edilir ki, o, Konvensiyanın iddia olunan pozuntusu ilə bağlı ərizəçinin şikayətini təmin edə bilər. Məsələn, həbsdə olduğu müddətdə həbsxanada saxlanma şəraitinə dair şikayət təqdim edən ərizəçi adətən bu şəraitin aradan qaldırılmasını təmin edən, başqa sözlə iddia olunan pozuntuya son qoymağa qadir olan müdafiə vasitəsi tələb edir. Digər tərəfdən, sözügedən şəxs həbs müddəti bitəndən sonra şikayət edirsə, adətən əlçatan və effektiv olması şərtilə, kompensasiya formasında müdafiə vasitəsi tükədilmiş olmalıdır. Ərizəçi göndəriləcəyi ölkədə təqib riski səbəbindən razılığa gələn dövlətin ərazisindən çıxarılmasının qarşısını almağa çalışırsa, hüquqi müdafiə vasitəsi yalnız dayandırıcı təsirə malik olduğu zaman səmərəli hesab edilir.

Məhkəmə qəbul etmişdir ki, ərizəçiləri bütün daxili hüquqi müdafiə vasitələrindən tükəndirmək öhdəliyindən azad edən xüsusi hallar ola bilər. Bu, məsələn, o zaman ola bilər ki, ərizəçi nümayiş etdirir ki, dövlət orqanlarının göz yumduğu, səmərəsiz və effektivliyi olmayan inzibati praktika mövcudur və bunun nəticəsində də Konvensiyaya zidd olan hərəkətlər həmişə təkrarlanır.

Ərizəçilər daha ətraflı məlumat üçün Məhkəmənin Qəbuledilənlik meyarlarına dair Praktiki Təlimatına nəzər salmalıdır.

## Qoşmalar və Əlavə səhifələr arasında fərq nədir?

### Qoşmalar

Siz iddialarınızı əsaslandıran və qəbuledilənlik meyarlarına uyğunluğu göstərən bütün sənədlərin, o cümlədən hökm, qərar və şikayətlərin, həmçinin, protokolların, şahid ifadələrinin və ya tibbi arayışların nüsxələrini əlavə etməlisiniz. Siz hər hansı rəsmi hərəkət və ya qərar barədə şikayət edirsinizsə, bu hərəkət və ya qərarı sübut etmək üçün adekvat təsdiqedici sənədləri təmin etməlisiniz.

Qoşmaların sayına dair məhdudiyyət olmasa da, yalnız işlə əlaqəli sənədləri əlavə etməlisiniz. Sənədlər tarix və prosedur ardıcıllığı ilə sıralanmalı, ardıcıl şəkildə nömrələnməli, tikilməməli, cildlənməməli və ya yapışdırılmamalıdır. Ərizə formasında qoşma siyahısı üçün nəzərdə tutulan sahə kifayət etmədikdə, siyahını davam etdirmək üçün əlavə səhifələrdən istifadə edə bilərsiniz. Qoşmalar aşağıda təsvir olunan əlavə səhifələrlə qarışdırılmamalıdır.

Qoşmaların siyahısını hökmən təmin edin və istinadı asanlaşdırmaq üçün əsaslandırmanızın hər bir məqamında əsaslandığınız qoşmaya istinad edin. Əsaslandırmanızda hansısa hesabata istinad etdikdə, Məhkəmənin müvafiq bəndləri tapa bilməsi üçün səhifə nömrəsini təmin etmək tövsiyə

edilir.

Ərizəçi hansısa vacib bir sənədin nüsxəsini təmin edə bilmirsə, bunun səbəbini müvafiq şəkildə izah etməli və adekvat təsdiqedici sənədlə müşayiət etməlidir. Bu, məsələn, onun həbsdə olması, yaxud vəkil tuta bilməməsi ilə bağlı ola bilər.

### Əlavə səhifələr

Ərizəyə əlavə olunan əlavə səhifələrin məqsədi qoşmaların məqsədindən fərqlidir. Bu səhifələr sizə Məhkəməyə arqumentlərinizlə əlaqəli olan, lakin ərizə formasına sığmayan əlavə faktlar və hüquqi məlumatları təqdim etmək imkanı verir. Buraya pozuntunun baş verdiyi kontekst (məsələn, həssas vəziyyətdə olan azlıq qrupunun təqibə məruz qaldığı kontekst, yaxud silahlı münaqişə və ya vətəndaş cəmiyyətinin repressiya olunduğu kontekst), yaxud fakt və ya hüquqi xarakterli arqumentlərin formalaşdırılması daxil ola bilər. Bununla belə, ərizənin müstəqil '*prima facie*' işi ehtiva etməsini təmin etməlisiniz. Əlavə səhifələrin sayı 20-dən çox olmamalıdır.

# IV. İcraatın ilkin mərhələsi haqqında digər praktiki məlumatlar

## İşdə birdən artıq sayda ərizəçi olduqda nə etməliyəm?

Fərqli faktlara əsaslanan işlərdə bir neçə ərizəçi varsa, ayrı-ayrı ərizələr təqdim etməlisiniz. Digər tərəfdən, eyni faktlara əsaslanan işlərə gəldikdə, siz bir ərizə təqdim etməli, lakin ərizə formasında hər bir ərizəçi üçün şəxsi məlumatları əks etdirən ayrıca vərəqlərdən istifadə etməlisiniz. Ərizəçilərin sayı beşdən yuxarıdırsa, Məhkəmənin veb-saytından ərizəçilərin cədvəlini yükləyərək doldurmalısınız.

Ərizəçilər onları təmsil edən nümayəndənin ünvanından ayrı şəkildə, öz ünvanlarını təmin etməlidir. Ərizəçinin evi və ya sabit yaşayış yeri yoxdursa, dostunun müvafiq məlumatlarını təqdim edərək, adekvat izahat təmin etməlidir. Ərizəçi həbsdə saxlanılırsa və ya sosial qayğı müəssisəsində yaşayırsa, həmin saxlanma/yaşayış yerinin ünvanını təmin etməlidir.

## Nümayəndələr üçün hansı qaydalar mövcuddur?

Ərizəçi ərizənin təqdim edilməsi mərhələsində vəkil cəlb etmək məcburiyyətində deyil. Bu, adətən işin tərəflərlə kommunikasiyasından sonra tələb olunur. Təyin olunmuş hüquqşünas vəkillik fəaliyyəti üçün səlahiyyətləndirilməli və razılığa gələn dövlətlərdən birinin rezidenti olmalıdır. Lakin müvafiq Palatanın sədrinin qərarı ilə bu qaydadan azad oluna bilər. Məsələn, hüquq fakültəsi məzununun və ya akademik fəaliyyətlə məşğul olan hüquqşünasın hətta vəkillik fəaliyyəti üçün lisenziya olmadan ərizəçinin adından hərəkət etməsinə icazə verilə bilər, yaxud ərizəçiyə öz işini özünün təqdim etməsinə icazə verilə bilər.

Məhkəmə hüquqi yardım mexanizmi idarə edir. İşin adekvat aparılması üçün zəruri hesab edildiyi təqdirdə, ehtiyacı olan ərizəçilərə hüquqi yardım verilə bilər. Lakin bu, yalnız iş barədə müvafiq Hökumətlə kommunikasiyadan sonra baş verə bilər. Hüquqi yardım Məhkəmədə icraatın hər bir mərhələsində ödənilən nisbətən kiçik sabit məbləğdən ibarətdir.

İş qabiliyyəti olmayan və ya səhhətində problemi olan bir ərizəçi məhkəmədə hüquq təhsili olmayan bir şəxs tərəfindən təmsil oluna bilər. Məsələn, bu, valideynin uşağı təmsil etməsi, himayəçinin öz himayəsindəki yetkinlik yaşına çatmış şəxsi təmsil etməsi, həssas vəziyyətdə olan insanın qeyri-hökumət təşkilatı tərəfindən təmsil olunması (müstəsna hallarda) və ya yuxarıdakı hallardan biri ilə üzləşən ərizəçinin öz qohumları tərəfindən təmsil olunması ilə bağlı vəziyyətləri əhatə edə bilər.

## Ərizəyə daxil edilmiş imzalara (formanın 13-cü səhifəsi) hansı qaydalar tətbiq edilir?

Ərizəçi və ya onun vəkil olmayan nümayəndəsi səlahiyyətləndirmə formasını imzalayır. Səlahiyyətləndirmə formasında imzaların əsli olmalıdır. Fotosurətlər qəbul edilmir.

Vəkillər ayrıca səlahiyyətləndirmə forması göndərmək əvəzinə, ərizəyə daxil edilmiş səlahiyyətləndirmə formasını imzalamalıdır. Vəkilin ərizə göndərildikdən sonra cəlb olunduğu və ya başqası ilə əvəz edildiyi hallarda, Məhkəmənin veb-saytında olan xüsusi formadan istifadə edilməklə, ayrıca səlahiyyətləndirmə forması göndərilməlidir.

## Məhkəmə Reqlamentinin 40-cı qaydasına əsasən təcili baxış və ya 41-ci qaydasına əsasən prioritetlik əldə etmək üçün necə müraciət etməliyəm?

Ərizəçilər Məhkəmə icraatının əvvəlindən işlərinin sürətləndirilmiş şəkildə baxılmasını xahiş edə bilərlər. Bunu edərkən, ərizəçilər 41-ci qaydaya əsasən Məhkəmənin prioritetlik siyasəti və 40-cı qaydaya əsasən təcili işlərdə sürətli məlumat vermə siyasətində müəyyən edilmiş kateqoriyalar əsasında tam səbəbləri göstərməlidir. Məhkəmənin prioritetlik siyasəti işlərin yeddi kateqoriyasından ibarətdir və Praktiki Təlimatda göstərildiyi kimi, daha yuxarı kateqoriyalarda olan işlərin (məsələn, uşaqların rifah məsələləri ilə bağlı işlər) daha aşağı kateqoriyadakı işlərdən əvvəl baxılacağını göstərir. Bu qaydaların biri və ya hər ikisinə əsaslanan müraciət ərizəni müşayiət edən məktub vasitəsilə, yaxud təxirəsalınmazlıq zərurəti sonradan yarandığı halda sonrakı bir tarixdə edilə bilər.

## Məxfiliyi necə tələb edə bilərəm?

Məhkəməyə göndərilən hər bir ərizədə ərizəçi eyniləşdirilməlidir (Maddə 35(2)(a)). Bunun edilməməsi ərizənin qəbulolunmaz hesab edilməsi ilə nəticələnə bilər. Məhkəmə bir qayda olaraq, qarşısındakı işlə əlaqəli sənədlərə ictimaiyyətin çıxışını təmin edir. Lakin müvafiq palatanın sədri sənədin açıq xarakterinin mümkün təsirlərini hərtərəfli əsaslandıran müraciət əsasında ərizəçilərə anonimlik hüququ verə bilər (lakin ərizəçinin məlumatları yenə də formada doldurulmalıdır). Bu müraciət ərizə ilə birgə, yaxud icraatın sonrakı mərhələlərindən birində verilə bilər. Ərizəçilər daha ətraflı məlumat üçün Məhkəmə Reqlamentinin 47 (4) maddəsinə və Anonimlik üçün müraciətlərə dair Praktiki Təlimata nəzər salmalıdır.  Məxfilik barədə müraciət təmin edildiyi halda, ərizəçiyə iş üzrə hesabatlarda onun ad-soyadının baş hərfləri və ya hərflə (məsələn, "X", yaxud "Y") istinad ediləcək.

## Ərizəni necə göndərməliyəm?

Ərizəçilər yalnız poçt yolu ilə göndərilə bilər, sifarişli poçt üsuluna üstünlük verilir.

## Ərizə göndərildikdən sonra nə baş verir?

Ərizə formasını göndərdikdən sonra, formanın və əlavə olunmuş sənədlərin əslinin bir nüsxəsini özünüzdə saxlamalısınız. Ərizəni milli hüquqi müdafiə vasitələri tükəndikdən sonra mümkün qədər tez və altı aylıq vaxt məhdudiyyəti bitməzdən xeyli öncə göndərmək xüsusi önəm kəsb edir. Sizdən altı aylıq vaxt məhdudiyyəti ərzində təqdim olunmuş ərizəni tamamlamaq və yenidən göndərmək xahiş edilə bilər.

Təqdim edilmiş ərizə tamdırsa, siz məhkəmədən sənədin nömrəsini göstərən və işlə bağlı bütün yazışmalara daxil edilməli olan bar-kodları əks etdirən təsdiq məktubu alacaqsınız. Yadda saxlamalısınız ki, bununla bağlı sabit vaxt müddəti yoxdur və təsdiq məktubunu almağınız aylarla çəkə bilər. Bu müddət ərzində Məhkəmənin sizinlə əlaqə saxlamasını gözləməkdən başqa edə biləcəyiniz bir şey yoxdur.

## İşlərimdən biri barədə sualım olduğu halda, Məhkəmə ilə necə əlaqə saxlaya bilərəm?

Məhkəməyə işinizlə bağlı suallar və ya sorğular göndərə bilərsiniz, lakin yadda saxlayın ki, cavab almaya bilərsiniz. Məhkəmə ərizələrlə bağlı mövcud iş yükünə görə ərizəçilərlə kommunikasiyanı minimum səviyyəyə məhdudlaşdırmışdır.

Məhkəmə əlavə məlumata ehtiyac duyduğu halda, mövcud məlumatı ötürmək üçün, yaxud icraatın hər bir mərhələsində istiqamət vermək üçün sizə yazacaq. Məhkəmənin göndərdiyi hər hansı sorğuya qoyulmuş müddət ərzində cavab vermək vacibdir. Qeyd olunmuş vaxtın ötürülməsi ərizəçinin müraciətini davam etdirməkdə artıq maraqlı olmadığının göstəricisi kimi qəbul edilə və sənəd imtina edilə, yaxud məhv edilə bilər.

## Məhkəmə tərəfindən təyin olunan son müddətin uzadılmasını xahiş edə bilərəmmi?

Ərizənin təqdim olunması üçün ilkin vaxt məhdudiyyəti 6 aydır. Bu müddət ötürüldükdən sonra təqdim edilmiş hər hansı ərizə qəbul edilə bilməz (Konvensiyanın 35-ci maddəsinin 1-ci bəndi). Bununla belə, işin kommunikasiyasından sonra, yəni işin sonrakı mərhələlərində Məhkəmənin tərəflər üçün təyin etdiyi müddətin uzadılması üçün müraciət etmək mümkündür. Müddətin uzadılması ilə bağlı hər hansı müraciət əsaslandırılmalıdır. Bu cür əsaslara ərizəçi və ya bir neçə ərizəçi ilə kommunikasiyada çətinlik, iş üzrə sənədlərin həddən çox olması (Hökumətin təqdim etdiyi sənədlər), işin xüsusi mürəkkəbliyi, hazır şəkildə mövcud olmayan konkret sübutları əldə etmək zərurəti, yaxud sənədləri tərcümə etmək zərurəti daxil ola bilər. İstənilən müraciətdə tələb olunan müddətin uzunluğu göstərilməlidir və bu müddət ağlabatan olmalıdır. Hökumətin

də müddətin uzadılması üçün müraciət etməsi faydalı ola bilər. Məhkəmə müraciəti qiymətləndirərək, müddəti uzadıb-uzatmamaqla bağlı qərar verir.

## Razılığa gələn tərəfin fərdi şikayət hüququna mane olmamaq öhdəliyinin tətbiq dairəsi nədir?

34-cü maddə razılığa gələn tərəflərin üzərinə fərdi şikayət hüququna mane olmamaq və Məhkəmə qarşısında ərizə təqdim etmək və bunun səmərəli şəkildə həyata keçirilməsinə müdaxilə etməmək öhdəliyi qoyur. Bu müddəa ərizəçilərə və ya onların qanuni nümayəndələrinə qarşı məcburetməni və hədə-qorxunu, həm də Məhkəmənin işə baxmasına imkan verməyəcək digər qeyri-adekvat dolayı hərəkətləri və ya təmasları əhatə edir.  Məsələn, dövlət orqanlarının ərizəçinin vəkilinin ofisindən bütün iş materiallarını müsadirə etməsi 34-cü maddənin pozuntusuna səbəb olmuşdu.

Konvensiyanın 38-ci maddəsinin 1-ci bəndinin "a" yarımbəndi də bu suala tətbiq edilə bilər. Bu müddəa dövlətlərdən təhqiqatın səmərəli aparılması üçün bütün zəruri vasitələri təmin etməyi tələb edir. Məhkəmə bu müddəanı xüsusilə iş üçün mühüm hesab etdiyi sənədlər təkcə hökumətdə olduqda, bu sənədləri hökümətdən tələb etmək üçün tətbiq edir. Əməkdaşlıq etməmək 38-ci maddənin 1-ci bəndinin "a" yarımbəndinin pozulmasına, eyni zamanda da ərizəçinin iddialarının kifayət qədər əsaslılığı ilə bağlı nəticəyə gəlinməsinə gətirib çıxara bilər.

## Məhkəməni nə zaman və nə haqqında məlumatlandırmalıyam?

Ərizə göndərdikdən sonra, ərizəçinin vəziyyətində işə aidiyyəti ola biləcək hər hansı önəmli dəyişikliklər (məsələn, ərizəni geri çəkmək və ya ünvan dəyişikliyi) olduqda, Məhkəmə məlumatlandırılmalıdır. İşin Məhkəmə qarşısında olduğu müddətdə ərizəçinin öldüyü hallarda, adətən onun qohumlarından biri işi davam etdirə bilər, o şərtlə ki, qanuni marağı olsun (məsələn, mərhuma kifayət qədər yaxınlıq) və ya Məhkəmə işin ümumi əhəmiyyətə malik olduğunu müəyyən etsin. Məhkəmə həmçinin sonradan yaranan, işlə bağlı xüsusi əhəmiyyətə malik olan və işin baxılmasına təsir göstərə biləcək önəmli proseslər (məsələn, ərizəçiyə kompensasiyasının ödənilməsi və ya yerli məhkəmənin hüquqi müdafiə vasitələri ilə bağlı qərarları və ya digər qərarlar) barədə məlumatlandırılmalıdır. Məhkəmənin bu informasiya ilə təmin edilməməsi qərəzli niyyətin olmasının əlaməti kimi qəbul edilə bilər və işiniz üçün mənfi nəticələr doğura bilər.

## Ədalətli kompensasiya üçün iddianı necə qaldıra bilərəm?

Ədalətli kompensasiya iddiaları bir qayda olaraq ərizəçi tərəfindən mahiyyəti üzrə qeydlərin təqdim edilməsi üçün müəyyən edilmiş müddətlər çərçivəsində təqdim olunmalıdır. Ədalətli kompensasiya maddi və qeyri-maddi zərərə, xərc və məsrəflərə görə təyin edilə bilər. Maddi və ya mənəvi kompensasiyanın təyin edilməsi Konvensiyanın müvafiq maddəsinin pozuntusu ilə iddia olunan zərərlər arasında aydın səbəb-nəticə əlaqəsi əsasında baş verir. İddialar bəndlərə bölünməli və təsdiqedici sənədlərlə müşayiət edilməlidir. Lakin hətta bu cür hallarda belə Məhkəmə iddia olunan məbləğdən daha aşağı məbləğ təyin edə bilər. Ərizəçilər özlərindən asılı

olmayan səbəblərə görə sübutları təqdim edə bilmədikdə, Məhkəmə mənəvi zərərlərlə bağlı iddia barədə qərar verərkən bunu nəzərə ala bilər. Maddi zərərə görə təyin edilən kompensasiyalar gəlirlərin (keçmiş və gələcək) itirilməsi, dolanışıq vasitəsinin itirilməsi, tətbiq olunmuş cərimələr və vergilər, tətbiq olunmuş müsadirə orderlərinin dəyəri, ödənilmiş zərərlər, tibbi xərclər və ya daxili məhkəmələrin rüsumları kimi bəndləri əhatə edə bilər. Mənəvi zərərə görə təyin edilən kompensasiyalar iddia olunan pozuntu nəticəsində əzab-əziyyət, yaşayışın pozulması, utanc, ümidsizlik, narahatlıq və ya imkanların itirilməsini ehtiva edə bilər. Vurulan mənəvi zərərin hər hansı birbaşa sübutu tələb olunmamasına baxmayaraq ərizəçilər məruz qaldıqları zərəri əks etdirən izahat təqdim edə bilərlər. Oxşar işlərdə təyin edilmiş kompensasiyalar müəyyən işdəki iddianın dəyərini qiymətləndirərkən faydalı bir göstərici kimi çıxış edə bilər.

Çəkilmiş xərc və məsrəflərə görə kompensasiya hüquqi yardımla bağlı xərcləri, habelə milli səviyyədə məhkəmə rüsumları kimi hüquqi xərcləri əhatə edə bilər. Xərc və məsrəflərə görə kompensasiyaların təyin edilməsi meyarları aşağıdakı kimidir: xərclərin faktiki olaraq çəkilməsi; onların pozuntunun qarşısını almaq və ya bu pozuntuya qarşı müdafiə əldə etmək üçün zəruri olması; və məbləğlərin ağlabatan olması. İstənilən iddia adekvat təsdiqedici sənədlərlə müşayiət olunmalıdır. Bununla belə, Məhkəmə iddia olunandan daha aşağı məbləğlər təyin edə bilər, çünki o, milli rüsumların milli şkalaları ilə məhdudlaşmır. Vəkillərə yerinə yetirilən tapşırıqları, işlədikləri saatları, saatlıq xidmət haqlarını və bütün xərclər barədə məlumatları əks etdirən ətraflı hesabatı məhkəməyə təqdim etmələri tövsiyə olunur. Müvafiq hesab-fakturalar və digər dəlillər əlavə edilməlidir. Ərizəçi vəkilin xidmət haqlarını ödədiyini və ya hüquqi baxımdan ödəməsinin tələb olunduğunu nümayiş etdirməlidir. Vəkil ödənişsiz əsasda xidmət göstəribsə, bu xərc çəkilməyib deməkdir və buna görə də əvəzi tələb oluna bilməz.

Ərizəçilər daha əraflı məlumat üçün Məhkəmənin Ədalətli kompensasiya tələblərinə dair Praktiki Təlimatına nəzər salmalıdır.

# V. Ərizə necə işlənilir?

## Məhkəmənin müxtəlif bölmələri arasında işlər necə bölünür?

Şikayət qeydiyyata alındıqdan sonra, Məhkəmənin bölmələrindən birinə təyin edilir: tək hakimə, üç hakimdən ibarət Komitə və ya yeddi hakimdən ibarət Palataya.

Tək hakimlər açıq-aşkar qəbuledilməz olan işlərin rədd edilməsinə və ya baxılacaq işlərin siyahısından çıxarılmasına dair yekun qərarlar qəbul edə bilər. Şikayət barədə cavabdeh hökumətlə kommunikasiya aparılmadan qəbul edilən bu cür qərarlar qətidir. Şikayətin qəbuledilməzliyi ilə bağlı qərar sözügedən şikayətin rədd edilməsi üçün əsasları qısa şəkildə əks etdirməlidir.

Komitələr cavabdeh hökumətlə kommunikasiya aparmadan və ya kommunikasiyanın ardınca işi qəbuledilməz elan edə və ya onları baxılacaq işlərin siyahısından çıxara bilərlər. Qərarlar kommunikasiyadan əvvəl qəbul edildikdə, ərizəçilər bu məqsədlə yığcam və konkret şəkildə əsaslandırılmış məktub alırlar. Komitələr, həmçinin, təkrarlanan şikayətlərin işlənməsini asanlaşdırmaq üçün yaradılmış prosedur çərçivəsində, işin qəbuledilənliyi və mahiyyəti barədə qərar verə bilərlər, o halda ki, Konvensiyanın təfsiri və ya tətbiqinə dair müvafiq məsələ (ərizənin əsasını təşkil edən) artıq oturuşmuş president hüququnun predmeti olmuşdur.

Palatalar tərəflərlə kommunikasiyadan sonra, işin qəbuledilməz elan edilməsi və ya baxılacaq işlərin siyahısından çıxarılmasına dair qərarlar qəbul edə, yaxud işin mahiyyəti üzrə qərarlar verə bilər.

İşlərin böyük əksəriyyətində şikayətin qəbuledilməzliyi ilə bağlı qərarlar qətidir. Bununla belə, istisna təşkil edən çox nadir hallarda, Məhkəmə özünün etditi fakt və ya hüquqi xarakterli səhvlərə əsaslandırılaraq, qəbuledilməz elan edilmiş müəyyən işi yenidən açmaq və baxılacaq işlərin siyahısına qaytarmaq barədə qərar verə bilər. Bu baxımdan nümunələrdən biri altı aylıq vaxt məhdudiyyəti qərarı ilə əlaqədar yekun qərarın tarixi ilə bağlı səhv ola bilər.

Məhkəmə tərəfindən təqdim edilən aşağıdakı sxem ərizələrin necə işləndiyini sadə şəkildə göstərir.




## İş barədə cavabdeh hökumətlə kommunikasiya başlayandan sonra nə baş verir?

Kommunikasiya dedikdə, cavabdeh hökumətə ərizə barədə məlumatın verilməsi nəzərdə tutulur. Bu, Məhkəmənin Katibliyi tərəfindən tərtib olunmuş faktlar haqqında məlumat və iş çərçivəsində qaldırılan və tərəflərdən cavab tələb edən konkret hüquqi məsələlərlə bağlı tərəflərə ünvanlanan suallardan ibarətdir. Kommunikasiyadan sonrakı standart prosedur iki ardıcıl mərhələdən ibarətdir. Birinci - mübahisəsiz mərhələ, tərəfləri dostcasına həllin mümkünlüyünə nəzər salmağa çağırır. İkinci - mübahisəli mərhələdə tərəflərdən şikayətin qəbuledilənliyi və mahiyyəti, habelə ədalətli kompensasiya və xərc və məsrəflər barədə qeydlərini mübadilə etmək tələb olunur.

Bəzi işlər sadələşdirilmiş prosedur xətti ilə irəliləyə bilər. Məhkəmə sürətləndirilmiş həllə nail olmaq məqsədilə, oturuşmuş president hüququnun tətbiq olunduğu, Komitə tərəfindən baxılan işlərdə qeydləri nəzərdən keçirməyə bilər. Məhkəmə həmçinin işlər üzrə kommunikasiyanı sadələşdirilmiş formada apara və tərəflərdən ciddi vaxt qrafikinə əməl edərək yığcam və dar çərçivədə uyğunlaşdırılmış cavablar vermələrini tələb edə bilər.

Tətbiq olunmuş prosedur xəttindən asılı olmayaraq, Məhkəmə tərəfləri dəqiq əməl edilməli olan ətraflı göstərişlərlə təmin edəcək. Məsələn, məhkəmə tərəfləri adi kommunikasiyadan sonra mübahisəsiz mərhələ ilə əlaqədar ərizəçinin qeydləri, eləcə də mübahisəli mərhələ ilə əlaqədar, sadələşdirilmiş kommunikasiyadan sonra ərizəçinin qeydləri haqqında və ədalətli kompensasiya tələbləri haqqında ətraflı təlimat təmin edir.

## Barışıq sazişindən imtina və ya onu qəbul etmək (yaxud təklif etmək) barədə qərarı necə verməliyəm?

Tərəflər işə barışıq sazişi əsasında son qoymaq barədə razılığa gələ bilərlər. Bu, icraatın istənilən mərhələsində baş verə bilər. Məhkəmə işin kommunikasiyasından sonra 12 həftəlik yeni icbari mübahisəsiz mərhələ tətbiq etməyə başlayıb. Məhkəmə danışıqları asanlaşdırmağa səy göstərir. Məhkəmə hətta Konvensiyanın 37-ci maddəsinin 1-ci maddəsinə əsaslanaraq, ərizəçinin barışıq sazişi ilə bağlı təklifləri "əsassız" şəkildə rədd etdiyini hesab edərsə, ərizəni baxılacaq işlərin siyahısından çıxara bilər. Barışıq sazişi istənilən işin mümkün həll yolu ola bilər. Məhkəmə artıq bunun məqsədəuyğun olduğunu hesab etdiyi işləri mütəmadi olaraq müəyyən edəcək və hər iki tərəfə potensial şərtləri təklif edəcək. Təklif olunan həll yolunun məhkəmə tərəfindən irəli sürülməsinə baxmayaraq, ərizəçi onu qəbul etmək öhdəliyi daşımır. Danışıqlar məxfi xarakterlidir və mübahisəli icraat mərhələsində irəli sürülən arqumentlərə xələl gətirmir və buna sonrakı mərhələlərdəki çıxışlarda istinad edilməməlidir.

Vəkillər bu mərhələdə öz müştərilərinin mənafeyini nəzərə almalıdır. İddia olunan pozuntular üçün pul formasında kompensasiya yetərli hesab edilərsə, barışıq sazişi hər hansı işi sonlandırmaq üçün sürətli və səmərəli bir yol ola bilər, o şərtlə ki, Hökumət ərizəçinin tələblərini yerinə yetirməyə hazırdır. Bununla belə, dostcasına həllə bağlı danışıqlar pul kompensasiyasından əlavə imkanlar da yarada bilər. Onlar qanun və ya siyasətə yenidən baxılması, dəqiq müəyyən edilmiş müddətlərdə restitusiyanı təmin etmək öhdəliyinin götürülməsi və amansız rəftarın araşdırılması öhdəliyi kimi istənilən bərpa formalarının müzakirə edildiyi və əldə olunduğu foruma çevrilə bilər. Hökumət mahiyyəti üzrə verilən qərarla üzləşməmək üçün daha yüksək məbləğlərdə kompensasiya ödəməkdə maraqlı ola və daha konkret öhdəliklər götürə bilər. Bununla belə, bəzi hallarda ərizəçilər mahiyyəti üzrə qərarla bağlı ictimailiyi öz şikayətlərinin həllinə qadir olan yeganə hüquqi vasitə hesab edə bilərlər və bu halda barışıq sazişi müzakirə mövzusu ola bilməz. Vəkillər və ərizəçilər nəzərə almalıdır ki, pozuntu faktı qəbul olunmadan verilən maddi xarakterli barışıq sazişləri təklif edilən ödənişlə vurulmuş zərər və ya ona səbəb olan hərəkətlər arasında səbəb-nəticə əlaqəsini qəbul etmədən edilən "ex gratia" ödəniş kimi çıxış edir. Nazirlər Komitəsinin bu cür razılaşmanın icrasına nəzarəti razılaşdırılmış məbləğin ödənilməsi ilə məhdudlaşacaqdır.

Daha ətraflı məlumat üçün zəhmət olmasa, EHRAC-ın Barışıq Sazişi və Birtərəfli Bəyannamələr barədə Təlimatına nəzər salın.

## Məhkəmədən müəyyən qərardakı səhvləri düzəltmək xahiş edilə bilərmi?

Böyük Palata və ya digər palataların qəti qərarları üç halda yenidən baxıla bilər: təfsir üçün müraciət (Məhkəmənin Reqlamentinin 79-cu qaydası), yenidən baxış üçün müraciət (80-ci qayda) və ya xətaların düzəldilməsi üçün müraciət (81-ci qayda). 81-ci qayda Məhkəməyə öz təşəbbüsü və ya tərəflərdən birinin müraciəti əsasında qərar və ya hökmdən sonrakı bir ay ərzində kargüzarlıqla bağlı səhvləri, hesablama səhvlərini və ya aşkar səhvləri aradan qaldırmaq imkanı verir. 79-cu qayda tərəflərə qərarın qəbulundan sonra bir il ərzində onun operativ müddəalarının təfsiri üçün müraciət etmək imkanı verir. Bu cür müraciətlər nadir xarakter daşımış və kompensasiya ödənişi ilə bağlı məsələlərə aid olmuşdur.

## Şikayətin Böyük Palataya ötürülməsini nə vaxt tələb edə bilərəm?

Konvensiyanın 43-cü maddəsinə uyğun olaraq, müvafiq palatanın qərarından sonrakı üç ay ərzində ərizəçilər işin Böyük Palataya ötürülməsi üçün ərizə təqdim edə bilər. Bu zaman iş beş hakimdən ibarət kollegiya tərəfindən təhlil edilir. Bu, özlüyündə apelyasiya hüququnu deyil, işə yenidən baxılmasını xahiş etmək hüququnu ehtiva edir və yalnız müstəsna hallarda təmin olunur. Şikayətin ötürülməsi üçün müraciət edən tərəf bunun səbəblərini göstərməlidir. Beş hakimdən ibarət kollegiya işin aşağıdakılardan hər hansı birini ehtiva edib-etmədiyini qiymətləndirəcək: 1) Konvensiyanın şərhinə təsir edən ciddi məsələ; yaxud onun tətbiqinə təsir edən ciddi məsələ (məsələn, bu, milli qanunvericilik və ya praktikaya əsaslı dəyişiklik edilməsini şərtləndirirsə); yaxud ümumi əhəmiyyətli ciddi məsələ (məsələn, əsaslı siyasi məsələ və ya mühüm siyasət məsələsi). Kollegiyanın qərarı əsaslandırılmır. Hər hansı palata tərəfindən şikayətin qəbuledilməzliyi və ya faktların müəyyən edilməsi ilə bağlı qərarlar və oturuşmuş presedent hüququnun tətbiq edildiyi qərarlar Böyük Palataya ötürülə bilməz.

## Şifahi çıxışları necə hazırlamalı və təqdim etməliyəm?

Məhkəmə müstəsna hallarda işin qəbuledilənliyi və/yaxud mahiyyəti barədə şifahi dinləmə təşkil edə bilər. Bu baş verdikdə, Məhkəmənin Katibliyi tərəflərə dinləmə zamanı cavablandırılmalı olan sualları əks etdirən məktub göndərəcək. Dinləmənin müddəti tərəflərlə razılaşdırılmaqla, qabaqcadan Sədr tərəfindən müəyyən edilir və hakimlər suallar verə bilər. Ərizəçilərə və Hökumətə adətən şifahi çıxışları üçün 30 dəqiqə vaxt verilir və Məhkəmənin hər hansı suallarını cavablandırmaq üçün əlavə 10 dəqiqə verilir. Verilmiş sualların arasında fasilə verilir. Dinləmələr adətən ümumilikdə iki saatdan çox davam etmir. Vəkillər istəyə əsasən vəkil mantiyası geyinə bilərlər, lakin bu, könüllü xarakter daşıyır. Dinləmələr Məhkəmənin rəsmi dillərindən birində aparılır. Lakin Sədr Avropa Şurasının digər dillərindən birindən istifadəyə icazə verə bilər. Vəkillər aydın danışmalı və çox sürətlə danışmamalı, faktları sadalamaq və ya şikayətin hər bir bəndi üzrə əsaslandırma aparmaq əvəzinə, iş üzrə əsas mübahisəli məqamlara köklənməlidir. Onlar nəzərə almalıdır ki, şifahi dinləmələr artıq təqdim edilmiş yazılı dəlilləri tamamlamaq məqsədi daşıyır və hakimlər artıq iş materialları ilə yaxından tanışdır.

# Avropa İnsan Hüquqlarını Müdafiə Mərkəzi

**Midlseks Universiteti**
**The Burroughs Hendon**
**NW4 4BT**
**Tel: +44 208 411 2826**
**www.ehrac.org.uk**
**ehrac@mdx.ac.uk**

EHRAC Midlseks Universiteti nəzdində yaradılmışdır. Universitet "Xeyriyyə təşkilatları haqqında qanun"a (1960) uyğun olaraq, qeydiyyatdan azad xeyriyyə təşkilatıdır.

Bu nəşrin vizual dizaynı “Matrix Causes Fund” fondunun yardımı ilə hazırlanmışdır. Bu nəşrin məzmununa görə məsuliyyəti müstəsna olaraq EHRAC daşıyır və heç bir şəkildə "Matrix" təşkilatının baxışlarını əks etdirmir.